

XATİRƏ RƏHİMBƏYLİ

# XATİRƏNİN SÖZ BOXÇASI

Üzü o tərəfə, könlü bu yana,
Ay iki arada qalan ey, salam.
Yığval tərsə düşüb, yol düz gəlməyib,
Ürəyi həsrətdə solan ey, salam.

Gəzir aralıqda qatı duman, çən,
Eh, nə bu mən mənəm, nə də o sən sən.
Ürəyim eşitdi ürəyin verən
Allah salamını... Salam ey, Salam!

Hər açılan sabah sabah olmur ki,
Quruca bir salam günah olmur ki...
Hər qəlbin salamı, Segah olmur ki,
Ürəyim inlədi: "Balam ey..." Salam.

Eh gəlirsiz gəldi bu gidi gərdiş,
Ürək dərd çəkməyi eylədi vərdiş,
Salamın qurusun, salamsız dərviş,
Eylədin ruhumu talan ey... Salam

***

Bir sözüm var ürəyimdə, deyimmi?
Eşqin mənim ürəyimdə xal oldu.
Mənim sözüm səndən sonra dil açdı,
Sənin sözün məndən sonra lal oldu.

Yalan oldun, günahlara büründün,
Duman oldun, zirvələrə süründün.
Güz-günəşim, hərdən-hərdən göründün,
Naçar könül həsrətinə qul oldu.

Üz çevirdin gedər-gəlməz yollara,
Könül verdin könlü qara qullara.
Miskin könül düşdü qanlı çöllərə,
Ümidlərim yanıb-yanıb kül oldu.

Suç işlədin, Tanrı keçmir suçundan,
Tükənmisən, ruhun ölür acından.
Ayrı düşdün aşiqlərin köçündən,
Qəlbin gəlib-gedənlərə yol oldu.

***

Hansı inam çəkib soydu dərini?
Yüz də soyul, dünya düzəlməz belə.
Nə qədər yalvardım: "Nə olar, şair,
Ölümə gedirəm, məni vəsf elə...

Nədi təzə eşqlər, təzə sevgilər,
Bir dəfə ayrılar can cismindən...
Yoxsa sevgin köhnə paltardı sənin,
Ruhun təzələnir soyulduqca sən?

Sənin inamını kim çiliklədi,
Mənim inadımı kim hörüb görən?
Adın ürəyimdən soyulmur, neynim,
Görəm necə qopur can cismindən...

Adın ürəyimə dəridi, şair,
Soyub qurtarmayıb gözlərim hələ...
Vallah, ayrılıq da ölümdü, şair,
Gəl ölümə, gedirəm, məni vəsf elə..."

***

Hicran mənim çox qanımı içibdi,
Ürəyimdə dərin yara açıbdı.
Ta sevgidən, məhəbbətdən keçibdi,
Adın kimi bir şeytan var içimdə!

Bu hiss çılğın bir körpədi, mən dayə,
Ta dözmürəm bu zülmə, bu cəfaya.
Sədaqətə, etibara, vəfaya,
Dəli kimi bir üsyan var içimdə!

Yar dediyim etmədisə inayət,
Nəyə lazım bu dözüm,bu dəyanət?!
Oyan daha, xəyanət, ah xəyanət!!!
Qırılmışam, qana qan var içimdə!!!

Aldadıldım, tükənmişəm, yox sözüm,
Ürəyimdə ziyan oldu çox sözüm..
Kəndir əlim, zəhər dilim, ox sözüm,
Bir cəhənnəm, bir zindan var içimdə.

"Bu yarğandan o yarğana dön" - deyir,
Cəhənnəmin atəşinə "sön!" - deyir.
Ölür, itir, qalxır yenə "sən!" - deyir,
Xatirətək bir nadan var içimdə!

***

Ürəyim sızlayır səsindən ötrü,
sözünün acısı eynimə gəlməz.
Səsin də dünyanın keyfinə gedir -
bircə yol hərlənib bu qəmə gəlməz.

Hər sabah çarmıxa çəkilər ahım,
"Ən-əl-sən" demişəm, bumu günahım?!
Adına bir ölkə qurmuşam, şahım!
Bəs nədən... insafın ölkəmə gəlməz?!

Yıxıb inancları, danıb dinləri,
sevginin canına saldın cinləri.
Ruhumun o xilas göyərçinləri
nə çağrışa baxmaz, nə dənə gəlməz.

Adına doğulub sevgim, hər nəsə...
Ürək sına-sına, dil əsə-əsə...
Bu dəfə sevdiyi rəhmə gəlməsə,
bu can bu cahana... eh, yenə gəlməz.

***

*"Bizim üçün xeyir-dua*
*Qılanlara salam olsun..."*
***Yunis İmrə***

Doğulub bir mələk kimi,.
kövrək qəlbi ləçək kimi...
Məhəbbəti çiçək kimi
solanlara salam olsun!

Küyə gedib, felə düşüb,
eşqi əldən-ələ düşüb,
yorğun ruhu yola düşüb
qalanlara salam olsun!

Kim gedir yolu sonacan -
ona qurban bu baş, bu can!
Həsrətdən ürəyi şan-şan
olanlara salam olsun!..

Tale qoymadı görəsən
İçimdəki o şən qızı.
Sən görəndə bəxt döymüşdü
O gülüşü gülşən qızı.

Qorxdun gözündəki yaşdan,
Oxumadın onu başdan.
Sən görəndə ehtiyacnan,
Savaşan, döyüşən qızı.

Vurdumu ALLAH sərindən,
Sındımı incə yerindən,
Kim saldı ki nəzərindən,
O gözündən düşən qızı?!!

Qəlbini ALLAHla düz tut,
Nə xeyri, unutma, unut
O gözləri qara bulud,
O ürəyi şişən qızı...

Xatirə də baxdı, keçdi,
Ömür keçib, gördü, gecdi,
Bir ağlağan ömür seçdi
O sevincək, o şən qızı.

O gülüşü gülşən qızı.
Əğyar sözüylə yarının
Gözlərindən düşən qızı,
Göz yaşı içinə axıb.

O ürəyi şişən qızı,
O bağrı bişən qızı...
Oxumadın onda başdan
Bəxtiylə döyüşən qızı...

***

Açıldı tilsimi bu sirr ömrümün.
Alındı havası bu kür omrümün.
Bu azad ömrümün, bu hürr ömrümün
bağlandı bərəsi, bəndi... tükəndim.

Gərildi qarşımda yolun haçası.
Sındı xəyalımın rəssam fırçası.
Tutuldu könlümün yolu, küçəsi,
uçuldu şəhəri, kəndi... tükəndim.

Qatlandı dizləri gərdişimin də.
"Haqq" deyib bağıran vərdişimin də.
Ürəyi titrədən gülüşümün də
tükəndi şəkəri, qəndi... tükəndim.

Arzumun üzünə sökülmədi dan.
Qaldı, yerdə qaldı, ah, bu nahaq qan!
Yedi ürəyimi, yedi bu hicran,
tükəndi, tükəndi, indi tükəndim.

Elə uzaq etdin onda yaxını,
bir də aşammadım hicran dağını.
Qaldırdı ürəyim ağ bayrağını,
ta başım sinəmə endi... tükəndim...

***

Adını çəkə bilmirəm,
Ay ismi-pünhan, hardasan?!
Axır məni öldürəcək
Bu dəli hicran, hardasan?!

Sanma bu üsyan yatacaq,
Əğyar əhdinə çatacaq...
Bir gün səni də tutacaq,
Vallah, nahaq qan, hardasan?!

Gəlsin ürəyimə qadan,
Niyə kəsilib səs-sədan?!
Ürəyimi atıb-tutan
Fırtına, tufan, hardasan?...

Yarı yalan, yarı gerçək,
Yarısı daş, yarı ürək.
Yarı şeytan, yarı mələk,
Ay yarı insan, hardasan?!

Bu sevda sevdalar xası,
Yox qurtuluşu, xilası...
Adın dilimin duası
Ay… ismi-pünhan, hardadan?!!

***

Gözümü tox etdin dünya malına,
Gizli mətləbləri yönəltdin mənə.
Qadağan eyləyib gözə girməyi,
Gözə görünməyi öyrətdin mənə,
Şükür, Xudaya!

Kimin ki, bağlıdır bəsirət gözü,
Kölgətək keçirəm onun yanından.
Sənin hökmün ilə gözəl duyğular,
Sıralanıb keçir şah damarımdan,
Şükür, Xudaya!

İzn verdiyin yer güzarım olur,
"Yox" desən, günlərim sayır yerində.
Sənin iznin ilə məşvərət edir,
Hər gün mələklərin çiyinlərimdə,
Şükür, Xudaya!

Gör heç dəyişirmi sonum, əvvəlim,
Cızdığın çevrədə dövrə vururam.
Hər gün qulluğuna ərzim var mənim,
Hər gün hüzurunda gəlib dururam.
Şükür, Xudaya!

Alıb əllərimdən adilikləri,
Qeyri-adiliklər bəxş etdin mənə.
Zülmə qabarmağı, haqqa enməyi,
Ürəkdən sevməyi öyrətdin mənə,
Şükür, Xudaya!

Təpədən-dırnağa sirrəm, İlahi,
Hərdən ürək dözmür belə şadlığa.
Sənə qulluğumla hürrəm, İlahi,
Şükür bəxş etdiyin bu azadlığa,
Şükür, Xudaya!

***

Sən gedəli kəsmir gözümün seli,
Gözümdən gəlirmi əməyin,ana?
Bilirsən qəlbimi necə yandırır
'Heç məni yazmırsan" deməyin, ana.

Havalanıb başı əsən yellərin,
Könlünü kim alsın küsən güllərin.
Ah, necə güclüymüş zərif əllərin,
Kəsilib hər yerdən köməyim, ana.

Qoymazdın ki ola qəlbi qan belə,
Başımın üstündə gəl dayan belə.
Gözümün önündən bircə an belə
Getmir ki heç deyib-gülməyin,ana.

İddiam üzümdə qaram olardı,
Ən cığal duyğum da tez ram olardı.
Qara günlərimdə bayram olardı
Qəfil qonaq kimi gəlməyin,ana.

Gül üzlüm, ömürün gül qədər oldu,
Güldüyün ay qədər,il qədər oldu.
"Şax gəzin!" deməyin zay, hədər oldu,
Əydi qəddimizi ölməyin, ana!

Sən idin ən yaxın dostum, sirdaşım,
Ovunmur ürəyim, qarışmır başım.
Qaldı qiyamətə mənim göz yaşım,
Sənin göz yaşımı silməyin, ana...

***

Sən də bu dünyanın ağ-qara görən
Yem üçün yüyürən fərdisənsə, get...
Qulac qollarını dünya malına
Məzlumu tapdayıb gərdisənsə, get!!!

Bax ha, xoşun gəlməz savaşlarımdan,
Qəbul etdiyimdən, çıxdaşlarımdan.
Qanlı əllərini göz yaşlarımla
Yuyub arıtmağa gəlmisənsə, get.

Sən mənə baş qoşma, inan, mən buyam,
Ürəyi çat-çatam, gözləri suyam.
Məni ovutmağa gəlmisən guya,
Halıma xəlvəti gülmüsənsə, get.

Dərdi qələm yazır, dil deyə bilmir,
Küskün ürəyimə "gül" deyə bilmir,
Adımı qəlbindən "sil" deyə bilmir,
Özün öz xoşunla silmisənsə, get.

Bu Tanrı hökmüdür, sən kim, mən kiməm,
Bu haqq qoymur məni qalxam, silkinəm...
"Əliboş, üz qara hikmət mülkünə
sahib olmaq olar"... bilmisənsə, get!!!

***

Yenə ürək doldu, gözlərim daşdı,
Söz-sovum tükəndi, dilim dolaşdı.
Mənəm qəlbiqiriq, gözləri yaşlı,
Bax, onsuz gəlmişəm sizə, ellər eyyy...

Soldunuz kimlərin fəndi-felində,
Kimin qəbri üstdə, kimin telində...
Dərilib dəstəylə onun əlində
Niyə gəlmədiniz mənə, güllər eyyy...

Nə var ürək qırıb, könül yıxmağa,
Yaxından yandırıb gendən baxmağa.
Yoxsa üzünüz yox üzə çıxmağa,
Uzanıb gedirsiz hara, çöllər eyyy...

O, oyun oynadı, mən buta bildim,
Bunu bəxt yazana bir xata bildim...
Nə yetdim, nə də ki unuda bildim,
Boşuna dolandı aylar, illər eyyy...

Gördüm bu dünyanı onun gözüylə,
Özünü itirdim, getdim iziylə…
Yaxşı nişançıymış, bircə sözüylə
Qırıldı qanadlar, düşdü qollar eyyy...

Yenə ürək doldu, gözlərim daşdı,
Söz-sovum tükəndi, dilim dolaşdı.
Mənəm qəlbiqiriq, gözləri yaşlı,
Bax, onsuz gəlmişəm sizə, ellər eyyy...

***

Nə tez-tez deyirsən: "Ölürəm daha",
Ağzından yel alsın, nə sözdü, ölmə!
Sənin ölünü də qıymazlar mənə,
Ölü diridən də əzizdi, ölmə!

Mənim başım çıxmaz küydən-kələkdən,
Ətrini alıram əsən küləkdən...
Adın xatirimdə güldən-çiçəkdən,
Göylərdə mələkdən təmizdi, ölmə!

Dilim dönməz deyəm, zalımsan, pissən,
Noolsun ki, indi əğyarla dostsan.
İlahi ülfəti min yol da pozsan,
İlahi sevgilər ölməzdi, ölmə!